**"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. 2004-cü il sentyabrın 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Saziş" **təsdiq edilsin.**
2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 noyabr 2004-cü il**
**№ 520**

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında**

# SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti,

1997-ci il 24 mart tarixli Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında gömrük işlərində əməkdaşlıq haqqında Sazişin müddəalarının həyata keçirilməsi məqsədilə,

kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlığı inkişaf etdirməyə və qarşılıqlı yardım göstərməyə səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

M a d d ə 1

Tərəflər bu Saziş əsasında və həmçinin öz milli qanunvericiliklərinin müəyyən etdiyi səlahiyyətlər çərçivəsində kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq edir və aşağıdakı tədbirləri həyata keçirirlər:

a) təcrübə mübadiləsi və kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması üzrə metodikaların birgə hazırlanması;

b) gömrük işi sahəsində birgə elmi tədqiqatların təşkili;

c) gömrük işi üzrə elmi-metodik ədəbiyyatın birgə hazırlanması və dərc edilməsi;

ç) gömrük işi məsələləri üzrə elmi nəşrlər və dərs ləvazimatları ilə mübadilə;

d) seminarların, digər tədris-metodiki və elmi-praktiki tədbirlərin həyata keçirilməsi;

e) təcrübə keçməyə qəbul;

ə) kadrların peşəkar təlimi sahəsində əməkdaşlıqla bağlı digər tədbirlər.

M a d d ə 2

Tərəflər bu Sazişin 1-ci maddəsində nəzərdə tutulmuş konkret tədbirlərin keçirilməsi qydalarını və şərtlərini (o cümlədən maliyyələşdirmə ilə bağlı məsələlər) onların keçirilməsindən ən geci üç ay əvvəl razılaşdırırlar.

M ad d ə 3

Bu Sazişin müddəalarının həyata keçirilməsi Tərəflərin tədris müəssisələrinə həvalə olunur.

Bu Sazişin müddəalarının həyata keçirilməsi məqsədilə Tərəflər müvafiq vəzifəli şəxslərə səlahiyyətlər verir və onların siyahısını mübadilə edirlər.

Madd ə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə protokollar şəklində sənədləşdiriləcək dəyişiklik və əlavələr edilə bilər. Belə protokollar bu Sazişin ayrılmaz hissəsi olacaq və bu Sazişin 8-ci maddəsində müəyyən edilmiş qaydada qüvvəyə minəcəkdir.

M a d d ə 5

Bu Sazişin həyata keçirilməsi ilə bağlı məsələlər üzrə Tərəflər arasında yazışma rus dilində aparılır.

M a d d ə 6

Bu Sazişin müddəalarının həyata keçirilməsi zamanı meydana çıxan mübahisələr ikitərəfli məsləhətləşmələr yolu ilə tənzimlənir.

Maddə 7

Bu Sazişin müddəaları Tərəflərin iştirakçı olduğu digər beynəlxalq müqavilələr üzrə Tərəflərin dövlətlərinin hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 8

Bu Saziş Tərəflərin onu imzaladığı tarixdən etibarən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanır.

Tərəflərdən hər hansı biri digər Tərəfə yazılı şəkildə bildiriş verməklə Sazişin fəaliyyətini dayandıra bilər. Saziş belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvəsini itirir.

Bakı şəhərində 2004-cü il 7 sentyabr tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, Ukrayna və rus dillərində tərtib edilmişdir, bütün mətnlər autentikdir.

Bu Sazişin müddəalarının təfsiri ilə bağlı fikir ayrılıqları yarandığı təqdirdə, rus dilində olan mətn üstünlüyə malik olacaqdır.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi** | **Ukrayna Dövlət Gömrük Xidməti tərəfindən** |
| (imza) | (imza) |